Əsası XIX əsrin sonlarında qoyulmuş Azərbaycan Teatr Xadimləri İttifaqı Qafqazın ən qocaman yaradıcılıq təşkilatıdır. Araşdırmaçı Qulam Məmmədli "Azərbaycan teatrının salnaməsi" kitabında "Novoye obozreniye" qəzetinin 1897-ci il 12 noyabr tarixli sayında dərc etdiyi bir məlumatı qeyd edib: "Bakıda ilk dəfə Artistlər İttifaqı təşkil edilmiş və bu ittifaq 300-dək artist və səhnə həvəskarını əhatə etmişdir. Üzvlük haqqı ildə 6 manat təşkil etmişdir". Üzvlər yalnız Azərbaycan səhnə ustalarından ibarət olmayıb. Həmin vaxtlar Bakıda fəaliyyət göstərən əcnəbi aktyorlar da quruma üzv yazılıblar.



# Qafqazın ən qocaman yaradıcılıq təşkilatı



Bu yaradıcılıq təşkilatı 1897-ci ildə "Artistlər İttifaqı" adı ilə yaranıb. 1917-ci ildən "Müsəlman Artistləri İttifaqı", 1920-ci ildən "Türk Aktyorlar İttifaqı", 1945-ci ildən "Azərbaycan Teatr Cəmiyyəti" kimi fəaliyyət göstərib. 1987-ci il 27 fevral tarixli təsis konfransının qərarı ilə Azərbaycan Teatr Xadimləri İttifaqı adlandırılıb. Müxtəlif adlarla fəaliyyət göstərsə də, yarandığı vaxtdan hər zaman milli teatr sənətimizin inkişafına və təbliğinə xidmət edib.

Zəngin inkişaf yolu keçmiş Teatr Xadimləri İttifaqına Azərbaycanın görkəmli sənətkarları başçılıq ediblər. Azərbaycanın maarifpərvər ziyalılarından Sultan Məcid Qənizadə, Əbdürrəhim bəy Haqverdiyev, Həbib bəy Mahmudbəyov, Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları, Abbasmirzə Şərifzadə ittifaqın sələfləri olmuş teatr birlikləri və cəmiyyətlərinin rəhbərləri olublar. Sonralar Teatr Cəmiyyətinə Şövkət Məmmədova, Rza Təhmasib, Mərziyə Davudova, Mustafa Mərdanov, Mehdi Məmmədov, Şəmsi Bədəlbəyli, Lütfiyar İmanov, Həsənağa Turabov, Azər Paşa Nemətov kimi sənət adamları başçılıq ediblər. Bu böyük sənətkarların rəhbərliyi ilə ittifaq zəngin təcrübə əldə edib, fəaliyyətini dövrün tələblərinə uyğun qurub. Beləliklə, XIX əsrin sonlarında kiçik bir cəmiyyət kimi fəaliyyətə başlayan ictimai birlik 1950-ci illərdən güclü potensiala malik bir təşkilat kimi formalaşıb.

Uzun illik tarixi boyu ittifaq Azərbaycanın mədəniyyət tarixində unudulmaz yer tutmuş bir sıra tədbirlər həyata keçirib, o cümlədən teatr festivalları, müsabiqə və sərgilər təşkil edib. Ötən əsrin sonlarından başlayaraq keçirilən dörd "Monotamaşa", iki "Him-cim" (Pantomim), iki "Eksperimental tamaşalar", iki "2+1" Eksperimental teatr festivalı, "Festivallar festivalı", "Milli klassika", Mədəniyyət Nazirliyi ilə birlikdə gənc rejissorların "Yeni teatr" Respublika Festivalı, Uşaq tamaşaları Festivalı, "Beynəlxalq Çexov Festivalının "İpək yolu" mərhələsi", "Boş məkanın dolğunluğu", görkəmli qiraət ustaları Həsən Əbluc və Müxlis Cənizadənin xatirələrinə həsr edilmiş bədii qiraət müsabiqələri, teatr rəssamlarının I Biyennal sərgisi və digər tədbirlər Azərbaycanın teatr həyatında xüsusi canlanma yaradıb, istedadlı gənclərin yetişməsinə təkan verib.

Azər Paşa Nemətov ittifaqın sədri olduğu dövrdə, onun təşəbbüsü, yaradıcı insanları ruhlandırmaq məqsədilə təsis edilmiş bir sıra mükafatlar - "Qızıl Dərviş" mükafatı, "Teatr Xadimi" qızıl və gümüş medalı, "Səhnə işığı" prizi, "Sənətkar" medalı və başqa mükafatlar ittifaq tərəfindən teatr tarixində müstəsna xidmətləri olan sənətkarlara verilib.

Teatr Xadimləri İttifaqı milli teatr sənətinin təbliği üçün nəşr işlərinə də xüsusi diqqət göstərib. Təşkilat tərəfindən Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuş "Azərbaycan teatr dünyası", görkəmli aktyor və rejissor, Xalq artisti Şəmsi Bədəlbəylinin, Xalq artisti, rejissor Məhərrəm Haşımovun, SSRİ Xalq artisti Hökumə Qurbanovanın, Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin, SSRİ Xalq artisti Qəmər Almaszadənin, görkəmli aktrisa, Xalq artisti Nəsibə Zeynalovanın 100 illik yubileylərinə həsr olunmuş "Ömrün səhifələri" seriyasından kitablar, MDB və Avropa məkanında tanınmış teatrşünasalim Nelli Korniyenkonun bir çox xarici dilə tərcümə olunmuş "Ukrayna teatrı üçüncü minilliyin astanasında" adlı tədqiqat əsəri, Əməkdar rəssam Arif Əbdürrəhmanovun "Teatrda rəssamın rolu", Xalq artisti Həsənağa Turabovun 75 illiyi münasibətilə "Bitməyən əfsanə", SSRİ Xalq artisti Mehdi Məmmədov və Əməkdar incəsənət xadimi Zəfər Nemətovun "Rejissor işi haqqında" (latın qrafikası ilə, yeni redaksiyada) kitabları çap olunmuşdur. Həmin əsərlər Beynəlxalq təşkilatlara və ölkə kitabxanalarına verilmişdir. Xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyi münasibətilə nəşr edilən kitab isə həm də dramaturqun Parisdə UNESCO-da keçirilən yubileyində tədbir iştirakçılarına təqdim edilmişdir.

Azərbaycan Teatr Xadimləri İttifaqı bu gün respublikamızda fəaliyyət göstərən ən fəal yaradıcı təşkilatlardandır. 800-dən artıq üzvü birləşdirən Teatr Xadimləri İttifaqının Naxçıvan, Gəncə, Lənkəran, Sumqayıt şöbələrinin aktiv fəaliyyəti milli teatr prosesinə əhəmiyyətli təsir göstərir. Təşkilatın beynəlxalq əlaqələri də genişdir. İttifaq Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının, UNESCO-nun Beynəlxalq Teatr İnstitutunun, eləcə də Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının həqiqi üzvüdür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.15.